**Ani Ödənişlər Sistemi**
**vasitəsilə əməliyyatların aparılması**
**REQLAMENTİ**

**1. AÖS aşağıdakı vaxt intervallarına uyğun olaraq fəaliyyət göstərir:**

| Vaxt | Əməliyyatların məzmunu | İcraçı |
|---|---|---|
| Əməliyyat günü: 00:00 - 24:00 | İştirakçılar tərəfindən ödəniş (o cümlədən, geri qaytarılma) tapşırığı və sorğuların göndərilməsi və qəbul edilməsi | İştirakçı |
| Əməliyyat günü: 09:30 - 24:00 | İştirakçılar tərəfindən limitlərin müəyyənləşdirilməsi | İştirakçı |
| Əməliyyat günü: 00:00 - 00:30 | Yeni əməliyyat gününün açılması, əvvəlki əməliyyat günü üzrə hesablardan çıxarışların iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| Növbəti iş günü: 10:00 - 10:30 | İştirakçılar tərəfindən aparılan əməliyyatlara görə xidmət haqlarının tutulması | Mərkəzi Bank |
| Növbəti iş günü: 10:30 - 11:00 | İştirakçılar tərəfindən aparılan əməliyyatlara görə interçeync və vasitəçilər üçün servis xidmət haqları üzrə qarşılıqlı hesablaşmaların aparılması və iştirakçılara hesabatın göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 09:30 - 10:00 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 1-ci tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 13:00 - 13:30 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 2-ci tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 15:00 - 15:30 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 3-cü tənzimləmə | Mərkəzi Bank |

| | | |
|---|---|---|
| | prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | |
| İş günü:<br>16:30 - 17:00 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 4-cü tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |

**2. AÖS-də hər bir ödəniş əməliyyatı üçün müəyyənləşdirilmiş limit**

AÖS-də əməliyyatın məbləği Dövlət Xəzinədarlığı Agentliyi, Mərkəzi Bank, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu” ASC tərəfindən göndərilən və alınan ödənişlər istisna olmaqla 40000 (qırx min) manatdan çox olmamalıdır.